

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  12 iyul 2023-cü il №51 (2763) https://mod.gov.az  Qiymәti 30 qәpik


*Reportaj*

## Azərbaycan əsgəri qəhrəmanlıq nümunəsidir



***Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində rəşadətli Azərbaycan Ordusu artıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun tikilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silahlarla təmin olunması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yeni inkişaf mərhələsinə qədəm qoyan ordumuz qarşıya qoyulan bütün döyüş tapşırıqlarının öhdəsindən gəlməyə hazırdır. Şəxsi heyətin döyüş qabiliyyəti, cəsurluğu, qorxmazlığı və vətənpərvərliyi isə göz önündədir. Aprel döyüşləri, Günnüt əməliyyatı, Tovuz hadisələri və ən önəmlisi 44 günlük Vətən müharibəsi dediklərimizin əyani sübutudur.***

Belə Vətən müdafiəçiləri ilə tanış olmaq məqsədilə işğaldan azad olunan ərazilərə yollandıq. Xalqımızın mərd oğulları ilə görüşmək, onlarla həmsöhbət olmaq bizə xoş hisslər yaşatdı. Çünki onlar çətin relyefli ərazilərdə xidmət etsələr də, Vətən keşiyində dayandıqları üçün qürurludurlar. Əminliklə deyirlər ki, dövlətimizin suverenliyinə, ərazi bütövlüyünə qarşı istənilən təxribatın qarşısını almağa daim hazırdırlar.

Söhbətimizə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elvin Hüseynli ilə başlayırıq. O, Vətənə xidməti özünə həm övladlıq, həm vətəndaşlıq, həm də mənəvi borc bildiyini deyir. Uşaqlıqdan hərbi peşəyə həyatını bağlayan zabitlər haqda kitablar oxuyar, filmlər izləyərdim. "Yadımdadır ki, kiçik yaşlarımda atamla birgə filmə baxırdıq. Bu film müharibə haqqında idi və orada bir səhnə vardı. Şəxsi heyətini döyüşə aparan komandirin şəxsi heyətin döyüş ruhunu qaldırmaq üçün işlətdiyi söz mənə həyatımın istiqamətini seçməyə kömək oldu. "Vətəni qorumaq da bir peşədir. Biz bu peşəni özümüzə borc bildik. Son damla qanımıza qədər döyüşməyə, döyüşdə qələbə qazanmağa hazırıq". Bu sözlər mənim üçün çox təsirli oldu. Daha sonra yaşa dolduqca hərb peşəsinə həvəsim artırdı. Ordu sıralarına qatılmadan öncə hərbi xidmət keçən dostlarıma məni maraqlandıran suallar verirdim. Aldığım cavablardan isə daha da çox həvəslənir və hərbi xidmətə çağrılacağım günü səbirsizliklə gözləyirdim. Nəhayət, o gün gəldi, sevincimin həddi-hüdudu yox idi. Azərbaycan əsgəri adını şərəflə daşımaq mənə də nəsib oldu. Xidmət dövrümdə şəxsi heyət üçün yaradılan sosial-məişət şəraiti, orduda olan maddi-texniki təminat, təlimlərdə qazandığım bilik və bacarıqlar hərb peşəsinə sevgimi daha da artırırdı. Tərxis olunduqdan sonra ordu sıralarına müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi qayıdacağıma qərar vermişdim. Bu gün qalib ordunun hərbi qulluqçusu olmağımla fəxr edirəm, öz üzərimdə durmadan çalışıram və komandirlərim tərəfindən verilən əmr və tapşırıqları vaxtında icra edirəm.

Manqa komandiri ilə söhbətimizi yekunlaşdırır, Vətən keşiyində dayanan mərd əsgərlərimizlə tanış oluruq. Onların gözlərindəki Vətən sevgisini gördüyümüz zaman bir daha əmin oluruq ki, xalqımızın dinc yaşayışını təmin etmək üçün torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırlar.

(Ardı 2-ci səhifədə)




Qələbə əzmli topçular

4-cü səhifədə





Tovuz döyüşlərinin ildönümü münasibətilə media-tur təşkil olundu

5-ci səhifədə





“Mən də əsgər olacam!”

7-ci səhifədə





“Hərbi xidmətdən qürur duyuram”

8-ci səhifədə

# Baş prokuror Naxçıvanda hərbi qulluqçularla görüşüb





*Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Naxçıvan Muxtar Respublikasında səfər çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində olub, hərbi qulluqçularla görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi qulluqçularla söhbət zamanı Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycanın bütün sahələrdə durmadan inkişaf etdiyini, günbəgün daha da qüdrətləndiyini bildirib və bunun parlaq nümunəsi kimi 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında xalqın və dövlətin sarsılmaz birliyi nəticəsində rəşadətli ordumuzun torpaqlarımızı düşmən işğalından azad etdiyini vurğulayıb.

Baş prokuror Kamran Əliyev şəxsi heyətin xidmətinin təşkili və məişət şəraiti ilə maraqlanıb, müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti, mövcud topoqrafik və taktiki şəraitlə tanış olub.

Görüş zamanı hərbi qulluqçulara hədiyyələr təqdim edilib. Əsgərlər hərbi hissədə yaradılan müasir maddi-texniki təminata və təchizata görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.





# Azərbaycan əsgəri qəhrəmanlıq nümunəsidir



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan əsgərinin qaməti, duruşu, qətiyyəti Vətən müharibəsində düşmənin kabusuna çevrilmişdi. Cəmi 44 gün ərzində doğma torpaqlarımızı işğaldan azad edən döyüşçülərimizin yazdığı qəhrəmanlıq salnaməsi indiki Vətən keşikçilərinə nümunədir. Bu müharibədə qazanılan Zəfərin unudulmaz tarix olduğunu bildirən əsgər Şahmar Ədilxanov sözünə başlayır. "Əgər kimsə bizim müstəqilliyimizə, suverenliyimizə qarşı təxribat törətməyə çalışarsa, rəşadətli Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almağa, qarşı tərəfi məğlub etməyə hazırdır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz İkinci Qarabağ müharibəsində dövlətimizin gücünü və qüdrətini düşmənə nümayiş etdirdi. Cəsur döyüşçülərimizin yazdığı qələbə tarixi sosial şəbəkələrdə paylaşılır, məktəblərdə tədris olunur, dillərdə dastanlara çevrilir. Əminliklə deyə bilərəm ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı qələbə dünya hərb tarixində layiqli yerini tutmaqdadır. Hər bir azərbaycanlı bu Zəfərin bir parçası olmaqla fəxr edir. Mən də öz növbəmdə qeyd etmək istəyirəm ki, işğaldan azad olunan ərazilərdə xidmət etdiyim üçün çox qürurluyam".

Əsgər Mahir Hüseynov hərbi xidmətinin çox hissəsini geridə qoyduğunu bildirir. "Mən də Vətənimizin müdafiəsində dayanan Azərbaycan əsgəri adını daşımağımla fəxr edirəm. Xidmətdə olduğum müddət ərzində öz üzərimdə daim çalışmışam. Hərbi xidmətə gəldiyim gündən, çoxlu dostlar qazanmışam. Deyirlər ki, əsgər dostluğu əbədidir. Mən buna əminəm".

Növbəti müsahibimiz əsgər Sadiq Hüseynov göstərilən qayğı və diqqət üçün ordu rəhbərliyinə öz minnətdarlığını bildirir. "Xidmətimizin təşkili üçün lazım olan hər cür şəraitimiz mövcuddur. Burada həm döyüş növbəsini təşkil edir, Vətənimizin müdafiəsində dayanırıq. Qarşıya qoyulan istənilən döyüş tapşırığı icra etməyə hazırıq".

Əsgərlər Faiq Qasımov və Hüseyn Hüseynzadə də qeyd edirlər ki, azad olunan ərazilərdə dalğalanan müqəddəs üçrəngli bayrağımız onları fərəhləndirir. Xalqımıza böyük zəfər sevincini yaşadan şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyir və müharibə veteranlarımıza cansağlığı arzulayırlar.

Ana Vətənin keşiyində mərdliklə dayanan, təmas xəttində igidliklə döyüş növbətçiliyi aparan əsgərlərimizlə görüş bizdə xoş təəssüratlar yaradır. İgidlərimizlə söhbətdən bir daha əmin oluruq ki, ordu sıralarında mətinlik, məğrurluq, cəsarət kimi mənəvi dəyərlər qorunub saxlanır, gündən-günə inkişaf edir. Onların simasında bütün ordumuzun yenilməz gücünün bir daha əmin oluruq. Bütün dünya şahiddir ki, dövlətimizin dayağı, xalqımızın güvənc yeri və qürur mənbəyi olan Azərbaycan Ordusu müstəqilliyimizi əbədi qorumaq gücünə malikdir.

**Baş leytenant
İbrahim MƏMMƏDBƏYOV
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR
"Azərbaycan Ordusu"**



# Hərbi hissədə təlim-metodiki toplanış keçirilib



*2023-cü il üçün hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində tabor, divizion komandirləri və onların müavinləri ilə təlim-metodiki toplanış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışda zabitlərin müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri təkmilləşdirilib, həmçinin fiziki hazırlığı qiymətləndirilib. Cari ilin növbəti tədris dövrü ərzində icra olunacaq tədbirlərlə bağlı müzakirələr aparılıb, o cümlədən toplanış iştirakçılarına metodiki tövsiyələr çatdırılıb.

Təlim-metodiki toplanışın keçirilməsində əsas məqsəd zabitlərin idarəetmə üzrə bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi və peşəkarlıq səviyyələrinin artırılmasıdır.

# Qırğızıstanlı nümayəndə heyətinin ölkəmizə səfəri davam edir



*Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Qırğızıstanlı nümayəndələr Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi institutun ərazisində ucaldılmış abidəsi və Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularımızın xatirəsinə ucaldılmış abidə kompleksi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Nümayəndə heyəti hərbi institutun qərargahında fəxri qonaqlar üçün xatirə kitabına ürək sözlərini yazıb.

Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Fizuli Salahov qonaqlara Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan islahatlar, bu istiqamətdə icra olunan tədbirlər barədə məlumat verib.

Hərbi institutun tarixi və əsas fəaliyyət istiqamətləri barədə brifinq təqdim edilib.

Qonaqlar hərbi institutun ərazisindəki "Heydər Əliyev və ordu quruculuğu" İdeoloji Mərkəzi ilə tanış olublar.

Sonra hərbi institutda təhsil alan qırğız kursantlarla görüş keçirilib. Qonaqlar burada şəxsi heyət üçün yaradılan şərait və tədris prosesi ilə tanış olublar.



Daha sonra Qırğızıstan nümayəndə heyəti Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində olub. Burada qonaqlara hərbi hissə haqqında məlumat verilib və videoçarx nümayiş etdirilib.

Qırğızıstanlı nümayəndələr hərbi hissədə komandolar üçün yaradılan şəraitlə tanış olublar. Hərbi hissənin istifadəsində olan silah və döyüş texnikası təqdim olunub.

Sonra qonaqlar komandoların nümunəvi məşqlərini izləyiblər.







# Hərbi hissənin yaradılmasının ildönümünə həsr olunan tədbir keçirilib





*İyulun 9-da "N" hərbi hissəsinin yaradılmasının ildönümü münasibətilə tədbir keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin və rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, hərbi hissənin şəxsi heyəti, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Müdafiə Nazirliyinin rəhbərliyinin təbrikləri şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər hərbi hissənin yaranma tarixindən, keçdiyi döyüş yolu, o cümlədən Vətən müharibəsi və son əməliyyatlarda iştirakından, eləcə də qarşısında duran vəzifələrdən danışıblar. Hərbi hissənin qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəldiyi xüsusi qeyd olunub.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində apardığı siyasəti uğurla davam etdirdiyi vurğulanıb. Bildirilib ki, dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində şəxsi heyətin döyüş hazırlığı və sosial-məişət şəraiti daim yüksək səviyyədə saxlanılır.

Sonra komandoların nümunəvi çıxışları izlənilib, incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Sonda xidmətdə fərqlənən, yüksək intizamı ilə seçilən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.



# Mövqelərimiz atəşə tutulub

İyulun 10-u saat 17:10-dan saat 20:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən, Qafan rayonunun Gığı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad və Ordubad rayonunun Nürgüt yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Xocalı və Xocavənd rayonları istiqamətlərində yerləşən mövqelərini də atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Eyni zamanda, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Xocalı, Xocavənd və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

*Təlim*

# Qələbə əzmli topçular

Günorta vaxtıdır. Göyün üzünə sanki dumandan boz pərdə çəkilib, günəşin şüalarını yerə düşməyə qoymur. Hava da istidən adamın gözlərini qamaşdırır. Uzaqdan görünən açıq sahədə açılmış toplar da bir xətdə sıralanıb. Hər topun yaxınlığında ərazinin rənginə uyğun alaçıqlar quraşdırılıb. İsti havalarda heyətlər bu alaçıqların altında günəş şüalarından qorunurlar. Vaxt itirmədən alaçıqlara yaxınlaşıram. İlk qarşılaşdığım zabit Faiq Mehdiyevi illərdir tanıyıram. Bacarıqlı, işində məsuliyyətli bir zabit kimi yaddaşıma həkk olunub. Sarışın, xoş rəftar bu zabitlə görüşmək həmişə xoşdur.

Zabit Faiq Mehdiyev bacarıqlı, nümunəvi top heyətlərindən söz açır. Bu hərbi hissə İkinci Qarabağ müharibəsində hücum edən piyada bölmələrimizin irəliləməsi üçün artilleriya dəstəyini təmin edib. Birləşmənin bölmələri cəbhənin müxtəlif istiqamətlərində uğurlu döyüş əməliyyatları aparıblar. Onlar düşmən hədəflərini vaxtında aşkar edərək sərrast atəşlə məhv ediblər. Zabit deyir ki, nümunəvi heyət olaraq birini göstərsəm, o birilərinin haqqına girmiş olaram. Hamısı bacarıqlı və peşəkardı. Amma döyüşlərdə yüksək peşəkarlıq nümayiş etdirmiş zabit Elşən Vəliyevin tabeliyində olan bölməyə getmək daha məqsədəuyğundur.



Bizi məşğələ yerində kapitan Elşən Vəliyev qarşılayır. Ortaboylu, gülərüz, öz işini mükəmməl bilən bu zabit indiki Heydər Əliyev adına Hərbi İnstitutu bitirib. Zabit olmaq Elşənin ən böyük arzusu olub. Arzusuna çatan zabit ali hərbi təhsil aldığı illərdə hərb elminə mükəmməl yiyələnməyi qarşıya məqsəd qoyub. Məqsədinə nail olub. Zabit kimi xidmətə başladığı ilk gündən komandiri olduğu əsgərlərə təhkim edilmiş silahdan istifadə qaydalarını lazımınca öyrətməyə çalışıb. Kapitan Elşən Vəliyevdə formalaşan xarakter - tabeliyində olanlara qarşı zabit qayğısı, zabit tələbkarlığı hər zaman onu uğura aparıb. 44 günlük Vətən müharibəsində qazanılan qələbə isə ən böyük uğurudur.

- Vaxtilə düşmənin işğalı altında qalan torpaqlarımıza görə həm vətəndaş, həm də zabit olaraq narahat olurdum. Hər dəfə əsgərlərə təlim keçəndə, onları hərbi bilikləri mənimsəməyə ruhlandıranda erməni tapdağı altında qalan yurd yerlərimizin azad ediləcəyi günün gələcəyini deyirdim. 27 sentyabr 2020-ci il unudulmayan tarix oldu. Həmin gün Ali Baş Komandan əks-hücum əmri verdi. Komandirlik etdiyim bölmə ilə birlikdə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi üçün hərəkətə başladıq. Qısa müddətdə komandirlik etdiyim bölmə müəyyən mövqeyə çatdı və döyüş düzülüşünə açıldı. Bütün cəbhə boyu şiddətli döyüşlər gedirdi. Vaxt itirmədən verilən hədəflərə toplardan atəş açmağa başladıq. Sevinirdik, qürurlanırdıq. Çünki səbirsizliklə gözlədiyimiz əmri icra edirdik. Füzuli, Cəbrayıl istiqamətində düşmən daha güclü müqavimət göstərməyə çalışırdı. Biz həmin istiqamətdə hücum edən piyada bölmələrimizin irəliləməsi üçün dəstək verirdik. Ermənilərin ön xəttə kömək gələn canlı qüvvəsi və silah-sursatlarının daşınmasının qarşısını aldıq. Düşmənin müdafiə rayonunun dərinliyində hərəkətdə olan döyüş texnikaları və atəş mövqelərini sıradan çıxarmaqla onun müdafiə qabiliyyətini zəiflətdik. Beləliklə, piyada bölmələrimiz üzbəüz döyüşdə düşməni məhv edərək əzəli torpaqlarımızı hissə-hissə azad etməyə başladı.

Zabit Elşən Vəliyev döyüşlərdə göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Heyətlər çöl məşqlərini davam etdirirlər. Top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Cavidan Usubov heyət üzvləri ilə məşqlərinə davam edir. Bölmə komandirindən aldığı komandanı vaxtında, dəqiq yerinə yetirmək topçuların başlıca vəzifəsidir. Burada hər bir heyət üzvünün öz döyüş tapşırığı var. Hər kəs döyüş zamanı hansı tapşırığı icra edəcəyini yaxşı bilir. Baş tuşlayıcı Ruslan Məmmədovun da üzərinə mühüm vəzifə düşür. Belə ki, o, aldığı döyüş tapşırığını yerinə yetirmək üçün topu hədəfə doğru istiqamətləndirir. Topu sağa-sola, aşağı-yuxarı hədəfləyən qurğuları son dərəcə yaxşı öyrənmək lazımdır ki, atılan mərmi hədəfə dəqiq dəysin. Digər heyət üzvlərinin də xidməti fəaliyyəti heç də tuşlayıcıdan, yaxud digərlərindən az deyil. Burada hər bir heyət nəfərinin əsas vəzifəsi döyüş tapşırığının icrası zamanı müsbət nəticə əldə etməkdi.





Heyət üzvlərindən əsgərlər Anar Abbasov, Ceyhun Mustafayev, Tayfun Cavadzadə, Kənan Musayev və Emin Səmədov xidmət dövründə topdan mükəmməl istifadə etməyi bacaran hərbçilərdir. Onlar İkinci Qarabağ müharibəsindən sonra hərbi xidmətə gəlsələr də, yaxşı dərk edirlər ki, komandirlərinin onlara öyrətdiklərinə dərindən yiyələnmək lazımdır. Vətənimizin ərazi bütövlüyünə qarşı hər an düşmən təhdidi ola bilər. İstənilən hücumun qarşısını almaq və düşməni sarsıdıcı zərbələrlə geri çəkilməyə məcbur etmək üçün həm nəzəri, həm də praktiki bilikləri təkmilləşdirmək lazımdı.

Zabit Elşən Vəliyevlə daha bir çalışma nöqtəsinə yaxınlaşıram. Burada əsgər Elşən Səfərbəyovun qarşısında balaca masa var. Əsgər komandirin verdiyi rəqəmləri masanın üzərindəki planşetin üzərinə köçürməklə hədəfə olan məsafəni hesablayır. Ona bir neçə hədəfə olan məsafənin hesablanması tapşırığı verir. Əsgər Elşən Səfərbəyov qısa müddətdə tapşırığı yerinə yetirir. O, bu barədə məruzə edir. Komandir əsgərin verdiyi çalışmanın icrasını yoxlayır. Məlum olur ki, hesablayıcı heç bir səhvə yol verməyib.

Beləliklə, biz artilleriyaçılarla daha bir təlim nöqtəsində görüşümüzü yekunlaşdırırıq. Onlara təlimlərdə və çöl məşğələlərində uğurlar arzulayıb yolumuza davam edirik...

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərin şərəfli döyüş yolunu özünə örnək bilən əsgər

Vətənin müdafiəsində dayanmaq, onu qorumaq şərəfli olduğu qədər də müqəddəsdir. Azərbaycan əsgəri bu müqəddəsliyi Vətən müharibəsində qanı ilə tarix yazaraq qorudu və gələcək nəsillərin yaddaşına köçürdü. Torpaqlarımızın azadlığı uğrunda şərəfli döyüş yolu keçənlər illərə, əsrlərə söykənən xalqımızın qəhrəmanlıq ənənələrini əməlləri ilə yaşatdılar. Onların Vətən naminə atdıqları hər bir addım bugünkü və gələcək əsgərlərimizin xidmət yoluna mayak oldu.

Şəhidlərin şərəfli döyüş yolunu hər zaman özünə örnək bilən əsgərlərimizdən biri də Surac Xudaverdiyevdir. Surac Biləsuvar rayonunun Bəydili kəndində doğulub. O, göz açdığı doğma Bəydili kəndinin torpaqlarımızın azadlığı uğrunda canından keçən neçə-neçə şəhidi olduğunu bildirdi.

Surac deyir ki, könüllü olaraq kəndimizdən Birinci və İkinci Qarabağ müharibəsində iştirak edən neçə-neçə cəsur oğullar olub. "Bibim oğlu Kənan Rüstəmli 44 günlük Vətən müharibəsində noyabrın əvvəlində Xocavənd istiqamətində gedən ağır döyüşlərdə şəhid oldu. Hazırda Azərbaycan Ordusunda xidmət edən doğmalarım, dostlarım da çoxdu. Mən də hərbi xidmətimi başa vurduqdan sonra yenidən ordu sıralarına qayıdacam. Hələ orta məktəbdə oxuduğum vaxtlarda hərbçi peşəsinə böyük marağım olub. Xidmətimi davam etdirmək üçün sənədlərimi hazırlayıb "Gizir hazırlığı kursu"na təqdim edəcəm. Yeri gəlmişkən deyim ki, kiçik qardaşım Nurlan Xudaverdiyev də bu günlərdə müddətli həqiqi hərbi xidmətə başlayacaq. Onun 18 yaşı var. Qardaşım bu günü səbirsizliklə gözləyirdi. Vətənə xidmət şərəf, vicdan borcumuzdur. Necə ki, şəhidlərimiz ölkəmizin ağır sınaq günlərində sinələrini Vətənə sipər etmişdilər. Canları, qanları bahasına xalqımıza Qələbə sevincini yaşatdılar. Onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq".



Komandirləri deyir ki, Surac xidmətə başladığı ilk gündən hərbi vərdişlərə dərindən yiyələnir. Özünü bacarıqlı, intizamlı və nümunəvi əsgər kimi göstərir. Verilən bütün tapşırıqlara həmişə məsuliyyətlə yanaşır. Vəzifə borcunu şərəflə yerinə yetirir. Xidmət etdiyi hərbi hissədə komandirlərinin, əsgər yoldaşlarının rəğbətini qazanmağa davam edir. O, Vətənə, dövlətə, xalqa xidmətini həyatının mənası hesab edən və Hərbi Anda sadiq qalan Azərbaycan əsgəri adını şərəflə daşımaqdan qürur duyur.

Bir ildir ki, hərbi xidmətini uğurla yerinə yetirən Suraca Vətənin keşiyində daha da əzmlə dayanmağı arzuladıq.

Bu Vətən torpağı Sizə əmanətdir, qəhrəman Azərbaycan əsgəri! Bu Vətən torpağı Sizin çiyinlərinizdə daim ucalacaq, var olacaq!

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Tovuz döyüşlərinin ildönümü münasibətilə media-tur təşkil olundu



*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Tovuz döyüşlərinin üçüncü ildönümü ərəfəsində media nümayəndələri üçün əməliyyatların keçirildiyi ərazilərə media-tur təşkil olunub.*

Hərbi hissəyə daxil olan jurnalistlərə Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Anar Eyvazov bildirdi ki, 12 iyul 2020-ci ildə Ermənistan silahlı birləşmələri Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində yeni mövqelər ələ keçirməyə cəhd etdilər. Lakin hərbi qulluqçularımızın ayıq-sayıqlığı və görülən adekvat tədbirlər nəticəsində düşmən itkilər verərək geri çəkilməyə məcbur edildi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini ələ keçirməsi cəhdlərinin qarşısı rəşadətli ordumuz tərəfindən qətiyyətlə alındı və hər hansı ərazi itkisinə yol verilmədi. Tovuz döyüşlərində ordumuzun əsgər və yüksək rütbəli zabitləri qəhrəmanlıq və igidlik nümunələri göstərərək, erməni işğalçılarının törətdikləri təxribatların qarşısını qətiyyətlə aldılar. Xain düşmənin həyata keçirdiyi təxribat nəticəsində yüksək rütbəli zabitlərimiz də şəhidlik zirvəsinə yüksəldilər. Onların qanları yerdə qalmadı, qisasları alındı.

Daha sonra media nümayəndələri əməliyyatların keçirildiyi əraziyə yollandılar. Burada onlar düşmənin həyata keçirdiyi təxribatların qarşısını alan məğrur oğullarımızla görüşüb, onlardan müsahibələr götürdülər. Müsahibələr zamanı cəsur oğullarımız döyüş əməliyyatlarından xatirələrini bölüşdülər.

İlk müsahibə verən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Hikmət Babayev oldu. O, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələnlərdən olub. - İyulun 12-də erməni silahlı birləşmələri tərəfindən mövqelərimiz atəşə tutuldu. Lakin rəşadətli ordumuz hücumun qarşısını qətiyyətlə aldı. Qısa bir zaman ərzində görülən adekvat tədbirlər nəticəsində düşmənə ciddi zərbələr endirildi. Təəssüflər olsun ki, döyüş meydanında bizim yüksək rütbəli zabitlərimiz də şəhadətə qovuşdu. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev kimi igid, cəsur və məğrur Azərbaycan oğulları əsgərlərimizlə çiyin-çiyinə döyüşdülər. Onların xüsusi peşəkarlığı ermənilərin kabusuna çevrilmişdi. Lakin düşmənin endirdiyi artilleriya zərbəsi nəticəsində onlar qəhrəmancasına şəhid oldular. Bununla da bütün dünyaya sübut oldundu ki, Azərbaycan Ordusunda xidmət edən hər kəs, rütbə və vəzifəsindən asılı olmayaraq, Vətənimizin azadlığı və müstəqilliyi uğrunda hər an canından keçməyə hazırdır, - deyərək müsahib bildirdi. Əlavə etmək istərdim ki, H.Babayev Vətən müharibəsində də iştirak edib. Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Respublikasının Prezidentininmüvafiq Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İlkin Yusifov da Tovuz döyüşlərinin iştirakçısıdır. Döyüşlər zamanı qəlpə yarası alan İlkin müsahibəsində bildirdi ki, hər birimiz ermənilərin necə xain olduğunu yaxşı bilirik. "Buna görə də hər zaman ehtiyyatlı davranır və hər an onları müşahidədə saxlayırıq. Çünki onların istənilən an təxribata əl atacağını yaxşı bilirik. Üç il öncə Tovuz rayonunun dövlət sərhədində baş verən təxribatlar kimi... Anidən artilleriya qurğularından mövqelərimizi atəşə tutan düşmən, postlarımıza hücuma keçdilər. Onlar bizi təşvişə salmaqla düşündülər ki, biz həyəcanlanıb mövqelərimizi tərk edəcəyik. Yalnız hər zamankı kimi, bu dəfə də yanıldılar. Tez və vaxtında cavab tədbirləri görüldü. Bir neçə gün davam edən döyüşlər zamanı biz düşmənə öz gücümüzü göstərdik. Döyüşlərdən sonra bir istəyimiz vardı: torpaqlarımızı azad etmək və general-mayor Polad Həşimovun qisasını almaq. Şükürlər olsun ki, o günü də yaşadıq. Müzəffər Ali Baş Komandanımızın döyüş əmri ilə rəşadətli Azərbaycan Orudusu əks-hücum əməliyyatı ilə Vətən müharibəsinə başladı. Qorxmaz və cəsur döyüşçülərimiz cənab generalımızın və bütün şəhidlik zirvəsinə yüksələn soydaşlarımızın qisasını



aldılar. Cəmi 44 gün ərzində tarixi torpaqlarımız işğalçılardan azad edildi. Bununla da bütün dünya ordumuzun gücünü gördü. Hətta bir neçə xarici dövlət haqq savaşımızda aparılan döyüş əməliyyatlarımızı yaxından izləyib, özləri üçün araşdırmalar apardılar".

- İyulun 12-də Ermənistan hərbi birləşmələri iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından istifadə etməklə ordumuzun mövqelərinə, həmçinin Tovuz rayonunun Ağdam və Dondar Quşçu kəndlərinə minaatanlardan istifadə edərək, atəşə tutdular. Düşmən hər zamankı kimi dinc əhaliyə atəş açaraq, xalq arasında təşviş salmaq istədi. Lakin onlar bilmirdilər ki, nə ordumuz, nə də xalqımız erməni əsgərindən qorxan deyil. Ordumuzun bölmələri qısa bir zaman ərzində onların bu təxribatlarına qarşı sərt cavab tədbirlərini həyata keçirdilər. Cəsur oğullarımızın endirdiyi dəqiq atəş nəticəsində qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edildi. Bölmələrimizin endirdiyi sarsıdıcı zərbələr nəticəsində düşmən xeyli sayda itki verərək, geri çəkilmək məcburiyyətində qaldı. Belə ki, hər zaman olduğu kimi Tovuz döyüşlərində də onların istəyi və arzuları ürəklərində qaldı, - deyə kapitan Yaşar Alıyev media nümayəndələrinə müsahibəsində bildirdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Amil Məmmədov isə bildirdi ki, həmin an gözümün önündən getmir. "Adi günlərdən biri idi. Açılan atəş nəticəsində hər şey dəyişdi. İlk olaraq düşündük ki, hər zaman olduğu kimi bu dəfə də mənfurlar atəş açıb susacaqlar. Yalnız anidən olaraq 60, 82, 120 millimetrlik minaatanlardan və digər ağır artilleriya qurğularından da istifadə edib, bölmələrimizə tərəf hücuma keçməyə başladılar. İyulun 12-dən başlayan aktiv döyüş əməliyyatları iyulun 17-si axşam saatlarınadək davam etdi. Bu müddət ərzində Ermənistan silahlı qüvvələrinin mövqelərimizi ələ keçirmək cəhdlərinin qarşısı tərəfimizdən qətiyyətlə alındı. Düzdür, heç bir döyüş itkisiz olmur. Bir neçə gün davam edən döyüşlər zamanı şəhidlərimiz də oldu, yaralılarımız da. Hər birimiz bütün şəhidlərimizin qarşısında baş əyirik.

Müsahibələrdən sonra media nümayəndələri şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də məişət şəraitinin təmin edilməsi məqsədilə hərbi hissədə yaradılan şəraitlə də yaxından tanış oldular.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

---

*Medallı igidlərimiz*

# "Hədəflər vaxtında aşkarlandı və məhv edildi"

Mayor Afiq Əliyev 1988-ci ilin iliq bir yaz günündə Ağdam rayonunun Qiyaslı kəndində dünyaya göz açıb. Göz açıb ki, doğulduğu bu əsrarəngiz diyarda gözəl günlər yaşasın. Amma erməni işğalçıları nə onu, nə də onun doğmalarını ata-baba yurdunda yaşamağa qoymadılar. İşğalçılar 1993-cü ilin yay günlərində onların kəndlərinə hücum etdilər, evlərini top-tüfəngə tutdular. Gözəl günlərin ahəngi pozuldu. Beləcə, beş yaşı yenicə tamam olmuş Afiq valideynləri ilə bərabər göz yaşları içində ata-baba yurdlarından didərgin düşdü. Beş yaşlı körpə ağrı-acılarla dolu qaçqınlıq həyatı yaşadı...

Doğma ocaqlarından məcburi köçkün düşəndən sonra Afiqgil böyük çətinliklə Mingəçevir şəhərində məskunlaşa bildilər. Yaşı çatanda Afiq şəhərdəki İlqar Kişiyev adına 17 nömrəli orta məktəbdə oxumağa başladı. Elmə, biliyə böyük həvəsi olan Afiq Əliyev kiçik yaşlarından dərslərə böyük maraq göstərirdi. Bu maraq illər sonra onu qüdrətli bir ordunun zabiti olmaq arzusuna qovuşdurdu.

Həmin illərdən söz açan mayor Afiq Əliyev dedi ki, 2002-ci ildə zabit olmaq istəyi ilə C.Naxçıvanski adına Hərbi Liseyə üz tutdum. Zabit olmaq, doğma ordumuzun sıralarında xidmət etmək çoxdankı arzum idi. İlk addımım həyatımın ən uğurlu ili oldu. Sınaqlarda yüksək nəticələr əldə edərək istəyimə çatdım. Hərbi liseydə müxtəlif fənlərlə yanaşı, hərbi biliklərə də yiyələndim. 2005-ci il də həyatımda ən yaddaqalan illərdən biri oldu. Çünki həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldum.

Hiss olunmadan keçən zaman yavaş-yavaş məni arzularımın zirvəsinə yüksəldirdi. "Leytenant" hərbi rütbəsi aldım. 2009-cu ildə ali hərbi təhsilimi başa vurdum. 2009-2010-cu illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində hərbi bilik və döyüş vərdişlərimi daha da təkmilləşdirdim. 2010-cu ildən "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başladım. Yurdumuzu düşmə-



nin hava hücumlarından qoruyurdum. Doğma ocaqlarımıza qayıdacağımız günü intizar və həsrətlə gözləyirdik. Əmin idim ki, gündən-günə inkişaf edən, möhkəmlənən, güc və qüdrətini artıran ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadirdir! Əmin idim ki, döyüşlərdə qələbə mütləq bizim olacaq. Çünki biz haqq işimiz uğrunda döyüşəcəyik!

27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində ordumuz xalqın ona bəslədiyi ümidləri doğrultdu. Mayor Afiq Əliyev özü də bu uğurlu əməliyyatların iştirakçısı oldu. Həmin döyüşlərdən söhbət açan zabit A.Əliyev dedi ki, istər sülh, istərsə də döyüşlər zamanı hava hücumundan müdafiə qüvvələrinin üzərinə böyük məsuliyyətli vəzifələr düşür. Daim ölkəsinin hava ərazisini - hüdudlarını düşməndən qoruyur. Vətən müharibəsi başlanan kimi biz də yurdumuzu düşmənin hava hücumlarından müdafiə etdik. Erməni işğalçıları ölkəmizin ərazisindəki strateji obyektləri havadan vurmağa çalışırdı. Biz xidməti vəzifələrimizə ayıq-sayıq, məsuliyyətlə yanaşaraq, qəsbkarların hava zərbələrinin qarşısını almağı bacarırdıq. Düşmən hədəflərini aşkarlayan kimi qısa müddət ərzində onu zenit-raket qoşunlarına ötürürdük. Saniyələr sonra isə həmin hədəflər məhv edilirdi.

Beləcə, döyüşlərin davam etdiyi günlərdə erməni işğalçılarının onlarla hava hücumunun qarşısını aldıq, hədəflər vaxtında aşkarlandı və məhv edildi. Hərbi hissəmizin şəxsi heyəti İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldi. Yuxusuz qaldığımız gecələrin hesabına qələbə qazandıq. Buna görə indi hamımızın başı uca, alnı açıqdır.

Döyüşlərdə göstərdiyi hünər və cəsarətə görə Əliyev Afiq Əli oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalına layiq görülüb.

Artıq üçüncü ildir ki, mayor Afiq Əliyevin qoynunda doğulduğu Ağdam rayonunun Qiyaslı kəndi erməni işğalçılarından azad olunub. İnanırıq ki, çox keçməyəcək, Afiq günlərin birində valideynləri və övladları ilə birlikdə böyük sevinc içində doğma ocaqlarına qayıdacaq. Qismətlərinə düşən ömrü bundan sonra sevinc içində yaşamağa davam edəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, bölmədə sağlam əhval-ruhiyyənin yaranmasında kollektivin rolu

**Suallar:**

**1. Hərbi etikanın əsasları.**

**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

### Hərbi etikanın əsasları

Etika qədim yunan dilində "şəxsin əxlaqi baxımdan adət və xasiyyəti" mənasını ifadə edən "etnos" kəlməsindən törəmişdir. Etikanın əsas mövzusu əxlaq anlayışıdır. Etika insanların həm ayrı-ayrı fərdlərlə, həm də ictimaiyyətlə münasibətlərinin təməlini təşkil edən dəyərlər, normalar, qaydalar, səhv-düz və ya yaxşı-pis kimi xüsusiyyətləri əxlaqi baxımdan öyrənən fəlsəfi nizamdır. Etika faydalı, yaxşı, pis, doğru və yanlış kimi məfhumları tətbiq edən fərdi və ya qrup davranış və münasibətlərində nəyin məqbul, nəyin qeyri-məqbul olduğunu müəyyən edən əxlaqi tezislər, dəyərlər və standartlar sistemidir.

Əxlaqi münasibətlər ictimai münasibətlər sistemində mühüm yer tutur ki, bunlar da əxlaq haqqında elm olan "etika" tərəfindən öyrənilir. Əxlaqın məkanı - insanlar arasındakı münasibətlərdir. İnsanın güclü və ağıllı olmasını müəyyən etmək üçün onu digər insanlarla görmək və ya müqayisə etmək vacib deyil, çünki bu, fərdin özünəxas xüsusiyyətləridir. Lakin insanın nə dərəcədə xeyirxah, əliaçıq, mehriban olmasını və bu kimi digər xüsusiyyətlərinin şahidi olmaq üçün onu məhz başqaları ilə ünsiyyət prosesində görmək zəruridir.

İnsani əxlaq şüurla birgə doğulmur. O, əxlaq normalarını və davranış qaydalarını tədricən mənimsəyir. Bu normalar və qaydalar müəyyən vaxtdan sonra onun fərdi şüurunda özünə yer tapır ki, bu da "yaxşını pisdən" ayırmağa kömək edir. İnsan çox vaxt hətta öz istəyinin əksinə gedərək, ictimai rəyi nəzərə alıb, hamı tərəfindən qəbul edilmiş davranış qaydalarına və əxlaq normalarına uyğun hərəkət etməli olur. Çünki cəmiyyətdə yaşayan insan ondan təcrid oluna bilməz. O, bu və ya digər mənada cəmiyyət qanunlarına tabe olmaq məcburiyyətində qalır. Çox vaxt, əsasən, "öz ürəyinin hökmü ilə" hərəkət edən insan cəmiyyət və ayrı-ayrı şəxslər qarşısındakı borc və vicdan hisslərinin təhriki ilə hər hansı addımı atır və bu zaman özü də hiss etmədən ictimai mənafe şəxsi mənafedən üstün tutulur. Belə olmasaydı, nə maddi-mənəvi nemətlər istehsal oluna bilər, nə də insan cəmiyyəti mövcud ola bilərdi.

Peşə etikası insanların peşə fəaliyyəti ilə əlaqədar aralarındakı münasibətlərin mənəvi xarakterini təmin edən davranış kodeksidir. Bir çox əxlaq normalarının ümumbəşəri xarakter daşımasına baxmayaraq, müxtəlif peşələrlə əlaqədar fəaliyyət növlərinin də özünəməxsus davranış normaları var. Etikanın əlaqədar fəaliyyət növlərindən biri də hərbi etikadır (hərbi-etik normalar).

Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmiş "Azərbaycan Ordusunun hərbi qulluqçularının etik davranış qaydaları" haqqında Əsasnamədə hərbi qulluqçular üçün etik davranış qaydaları, prinsipləri və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər müəyyən edilmişdir.

Hərbi xidmət - insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapır. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur. Bununla belə, əxlaq qanunlara, nizamnamələrə kor-korana tabe etdirilmir. Əksinə, Azərbaycan Ordusunda hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidmətləri və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır. Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə Hərbi Andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya qaydalarına riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçu öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıq səviyyəsində yerinə yetirməyə borcludur. Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyində olanlara da eyni dərəcədə şamil edilir. Hərbi qulluqçu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı komandiri (rəisi) ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbrli olmalıdır.

Hərbi qulluqçu xidməti vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə hərbi xidmətin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, hərbi xidmətin və hərbi qulluqçunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı və ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı və bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis və inandırıcı sözlərə üstünlük vermək lazımdır.

### Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları

Kollektiv insanların şüurlu şəkildə toplanmış birliyi və ictimai fəaliyyətin yerinə yetirilməsi üçün birgə fəaliyyətidir. Kollektiv insanlar arasında münasibət formalarına və fəaliyyətin xarakterinə görə fərqlənir. Bu birgə insan fəaliyyəti içərisində hərbi kollektiv xüsusi yer tutur.

Hərbi kollektiv - ölkənin və onun sərhədlərini xarici təcavüzdən silahlı müdafiəsini təmin etmək üçün vahid komandanlıq prinsipi əsasında toplanmış hərbçilərin sarsılmaz birliyidir. Azərbaycan Ordusu, qoşun birləşmələri - korpus, briqada, tabor, bölük, taqım hərbi kollektivlərdir. Azərbaycan Ordusunda ilk kollektivlər taqım və bölüklərdir. Burada hərbçilər bir-biri ilə fasiləsiz iş, məişət və digər əlaqədədirlər. Hərbi kollektivdə şəxslərarası münasibətlər mühüm rol oynayır. Şəxslərarası münasibətlər dedikdə, gündəlik ünsiyyət prosesində, müxtəlif tapşırıqların yerinə yetirilməsi gedişində, xidmət və istirahət vaxtı kollektivin üzvləri arasında yaranan münasibətlərin müxtəlif forma və növləri nəzərdə tuturlur.

Hərbi kollektivdə mövcud olan qarşılıqlı münasibətlər - hərbi qulluqçuların həyatında, hərbi xidmətində ünsiyyət zamanı yaranan münasibətlər sistemidir. Onlar arasındakı münasibətlər həm cəmiyyətdə işləyən qanunlar, həm də qanun qüvvəsində olan hərbi nizamnamələr vasitəsilə tənzimlənir. Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir. Hərbi nizamnamələr ordunun xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir və onlarda döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Qanunlarda qarşılıqlı münasibətlərin əsas prinsipləri belə ifadə olunur: vahid komandanlıq; subordinasiya münasibətləri (kiçik vəzifəlinin böyük vəzifəliyə tabe olması); hərbi yoldaşlıq, dostluq və kollektivçilik münasibətləri; hərbi nəzakət, şərəf və ləyaqət prinsipləri; ədalətlilik prinsipi; humanistlik (insansevərlik) prinsipi və digərləri.

Bu prinsiplər həm xidməti (rəsmi), həm də qeyri-xidməti (qeyri-formal) qarşılıqlı münasibətlərin hüquqi və mənəvi-əxlaqi əsasını təşkil edir. Xidməti münasibətlər, hərbi qulluqçular funksional vəzifələrini, yəni döyüş növbətçiliyi, qarovul və daxili xidmət, təlim-döyüş və digər xidməti tapşırıqları yerinə yetirərkən özünü büruzə verir. Qeyri-formal münasibətlər isə hərbi qulluqçuların şəxsi əlaqələrində, ilk növbədə məişət mühitində, istirahət və asudə vaxtı qurularaq inkişaf edir. Burada hər bir hərbçinin fərdi-psixoloji xüsusiyyətləri mühüm rol oynayır.

Qarşılıqlı münasibətlərin ən geniş yayılmış növü yoldaşlıq münasibətləridir. Onlar bir qayda olaraq xidməti - işgüzar əlaqələr üzərində qurulur. Burada birgə fəaliyyətin və ünsiyyətin məqsəd, vasitə və nəticələri əlaqələrin inkişafını müəyyən edir və ümumi funksiyaları bölüşdürür. Buna görə də, hərbi qulluqçular arasında bir-birlərinə yoldaş deyərək müraciət edirlər.

Hərbi qulluqçular arasındakı münasibətlərin daha bir növü qarşılıqlı anlaşma və kömək üzərində qurulan dostluqdur. O başqa bir insana olan xoş münasibətdən (rəğbətdən), ona olan hörmətdən başlayır. Əgər rəğbət bir qayda olaraq emosiyalara və hissiyyata əsaslanırsa, onda hörmət digər şəxsin yüksək mənəvi keyfiyyətlərinin tanınması deməkdir. Döyüş yoldaşlığı münasibətləri isə xüsusilə dəyərlidir. Onu əsgəri qardaşlıq da adlandırırlar. Döyüşlərdə iştirak etmiş hərbi qulluqçular arasında döyüş yoldaşlığı, "qardaşlığı" xüsusilə aydın görünür. Birinci və İkinci Qarabağ müharibəsi iştirakçıları döyüş yoldaşlarının, bir yerdə döyüşlərdə iştirak etdikləri, demək olar ki, doğmalaşdıqları xidmət yoldaşlarının xatirəsinə böyük hörmətlə yanaşırlar.

Hərbi kollektivdə həmrəylik xeyli dərəcədə həm də kollektiv əhval-ruhiyyədən asılıdır. O, hansısa bir hadisə ilə əlaqədər ümumi sevinc hissi, inam və nikbinlik, bəzən əksinə ruh düşkünlüyü, pessimizm, inamsızlıq, müharibə vaxtı isə - təşviş formasında təzahür edir. Kollektivdə ən arzuolunan əhval-ruhiyyə həyat-sevərlik və nikbinlikdir.

Hərbi kollektivdəki mənəvi-psixoloji mühitin köməyi ilə bütün kollektivin fəaliyyəti realizə olunur. Mənəvi-psixoloji mühitin xarakterindən asılı olaraq onun kollektivin üzvlərinə təsir qüvvəsi də müxtəlif cür olacaqdır. Yüksək mənəvi-psixoloji mühit kollektiv üzvlərinin əhval-ruhiyyəsinin yüksəldilməsinə kömək edir, gümrahlığını, inamını, təşəbbüskarlığını artırır.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirərək yüksək mənəviyyata malik olması, Hərbi Andın, nizamnamələrin tələblərinə uyğun yanaşmaqla bölmədə sağlam əhval-ruhiyyə yaradaraq Azərbaycan Ordusunun inkişafının yeni bir səviyyəsinə yüksələcək.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Mən də əsgər olacam!"



Əsgərdən gələn məktub əl-əl gəzir, gözlərin nuruna, ürəklərin sevincinə dönür. Bir nəfərə yazılsa da, neçə dəfə oxunur, neçə ruhu rəvanla ruhən kəlmələşir. Bu kəlmələşmə doğmalaşmadı...

Məktəbliyə əsgərdən məktub gəlib. Şagird məktub yazdığı əsgəri tanımırdı - tanıdı. Əsgərdən aldığı məktubu həmişə əzizləyəcək - adına gələn ilk məktub kimi, əsgərdən gələn məktub olduğuna görə. Sevinə-sevinə alıb, sevinə-sevinə oxuyub, sevinə-sevinə düşünüb: Mən də əsgər olacam! Hər kəlmə şagirdin uşaq dünyasının dolaylarından sıyrılan cığıra dönüb, cığırlar - ruhən yola... Məktəbli bu cığırların işığından baxıb gördüyü yeni dünyaya əsgər dünyası deyib, əsgər dünyasına - Azərbaycan, Azərbaycana - Vətən. Azərbaycanı sevən məktəbli Vətənin müqəddəsliyini, bəlkə də, bu anlarda duyur, dərk edir; dili Vətən deyən məktəblinin ürəyi də Vətən deyir...

Vətənpərvərlik müxtəlif məqamlarda müxtəlif yollarla təsdiqlənir. El-oba, xalq, millət, dövlət adına istəyin gerçəkləşməsindən qəhrəmanlığadək belədi; Vətəni sevənləri sevmək də vətənpərvərlikdi:

Bakı şəhərindəki 220 nömrəli məktəb-liseyin 2-ci sinif şagirdləri əsgərlərə məktub yazmışdılar. Hər məktubda sevgi vardı. Bu sevgi əsgərə ünvanlansa da, Vətənə sevgini ifadə edirdi.

Məktəbin müəllimi Həqiqət Əsgərovanın təşəbbüsü gözəl təşəbbüsdü - məktəblilər əsgər həyatı ilə tanış olurlar, hərbi xidmət haqqında əsgərlərin özlərindən öyrənirlər. Müəllim bu təəssüratları gərəkli məcraya yönəldəcək. Bu, uşaqların vətənpərvərlik duyğularının formalaşmasının başlanğıcı olacaq. "Vətəni sevirsiniz deyə biz sizi çox sevirik", - Məlik belə yazmışdı. Məlikin məktubunu əsgər Ruslan Ələsgərov da oxumuşdu, yaxınlığındakı əsgər yoldaşları da. Hamısı duyğulanmışdı. Əsgər Ruslan Ələsgərov cavab məktubunda Vətənə belə sevgisinə görə Məlikə minnətdarlıq edirdi: "Biz də sən yaşlarda olanda sizin kimi düşünürdük, indi əsgərik, Vətəni qoruyuruq. Böyüyəcəksiniz, siz də Vətəni qoruyacaqsınız...". Məlik də, Məlikin sinif yoldaşları da bu məktubu əsgər xeyir-duası bilir...

Əsgər Malik Arzumanov Nur adlı məktəblinin sualına cavab olaraq yazıb ki, bütün əsgərlər bir-birləri ilə həm silahdaş, həm də dostdur. Azərbaycan Ordusunun gücü həm də bu dostluqdadı. Cavab məktubuyla tanıdığı əsgər Malik Arzumanovun fikirləri indi ikinci sinif şagirdi olan Nurun yaddaşında həmişə qalacaq, gələcəkdə bu fikirləri gözəldən də gözəl dərk edəcək. Bu əminlik haradandı? - hələ azərbaycançılığın nə olduğunu bilməyən 8 yaşlı məktəblinin səmimi sualına 19 yaşlı əsgərin səmimi cavabı azərbaycançılıqdı; bu cavab azərbaycançılığın bir çalarının sözlə ifadəsidi. "Sizin yaxşı təhsil alıb gələcəkdə ölkəmizə xeyir verəcəyinizi, dəyərli vətəndaş olacağınızı düşünmək mənə sizin kimi məktəbliləri olan Vətənin keşiyində durmaq qədər xoşdu..." - fikirləri də belədi. Bu məktubun (belə məktubların) Nurun da, onun sinif yoldaşlarının da, məktəbin digər siniflərində oxuyanların da xarakterinin formalaşmasında gərəkli olacağına əminlik, həm də dostluğa sədaqətdi...

Əsgər İsaxan Abdullayevin Fuada yazdığı cavab məktubu da bu niyyətlə səsləşir: Azərbaycan əsgəri olaraq Azərbaycan məktəblisinə duru niyyət bildirmək. Bu duru, bu gözəl niyyətdə də mehin yarpağa, ruhun bayrağa, bayrağın torpağa bağlılığının, ayrılmazlığının işartıları görünür: "İnanırıq ki, gələcəkdə Vətənə gərəkli olacaq peşə seçəcəksiniz, Vətənə layiqli övlad olacaqsınız..."...

Əsgər İsaxan Abdullayevin məktəbli Suada yazdığı fikirlər Azərbaycan əsgərinin mənəvi dünyasının zənginliyinin, Vətənə sevgisinin, hərbi xidmətə sədaqətinin təsdiqidir. Suad da, sinif yoldaşları da bu məktubu oxuduqdan sonra İsaxanın timsalında bütün əsgərlərimizi daha da çox sevəcəklər...

Əsmanın öyrənmək niyyətli sorğusu adi maraq olsa da, ictimai maraqdı - Əsma yaşında olan məktəblilər də, onlardan bir neçə böyük olanlar da bu suala cavab almaq istərdi: "Əsgərin bir günü necə keçir?". Əsgər Rəşad Əliyev Əsmanın sorğusunu həm cavablandırıb ("Saat altıda oyanırıq, səhər idmanı edirik, sonra yatağımızı yığırıq, yuyunuruq, səhər yeməyindən sonra biz də sizin kimi dərs keçirik. Zabitlər bizə hərbi biliklər öyrədir, silahlardan atma bacarığımızı təkmilləşdiririk, təlim varsa, iştirak edirik.



Asudə vaxtlarımızda xalqımızın tarixindən, Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı Zəfərdən danışırıq"), həm də onlara - 220 nömrəli məktəb-liseyin şagirdlərinə tövsiyələrini bildirib ("Yaxşı oxuyun, Vətəni daha böyük məhəbbətlə sevin"), arzularını çatdırıb ("Sizə dərslərinizdən yüksək qiymətlər almağı, əlaçı olmağı, gələcəkdə tələbə adı qazanmağı arzulayıram")...

Əsgər Nuriyev Ömərə yazıb ki, biz Vətəni qoruyuruq. Bu, bizim borcumuzdur, yaxşı oxumaq - sizin. Burada bizə hər cür yüksək şərait yaradılıb. Heç nədən çətinliyimiz yoxdur. Bizə hərbi xidmətdə nümunəvi əsgər olmağa çalışırıq, siz də nümunəvi şagird olmağa çalışın. Komandirimiz deyir ki, istəyin varsa, ona çalışmaqla nail ola bilərsən.

Gözəl düşüncələrdi! Şagirdlərin belə düşünən əsgərlərə görə orduya sevgisi daha da artacaq, orduya sevgisinə görə - Vətənə!..

Bu, gümandan daha çox gerçəklikdir. İsaxan yazıb ki, "Vətəni qorumaq şərəf işidir, biz bunu sevə-sevə edirik. Sizə tövsiyəm budur ki, Vətənimiz haqqında hər şeyi öyrənəsiniz, onda Vətənimizin necə gözəl olduğunu daha yaxşı biləcəksiniz. Vətəni sevə-sevə böyüyəcəksiniz, sinfinizin oğlanları Vətəni sevə-sevə böyüyəcəklər, Vətənin əsgəri olacaqlar. Onlarla siz də qürurlanacaqsınız. Siz də bilin ki, Azərbaycan Ordusu ən güclü ordulardandır...

Gülay yazmışdı ki, bizim evdə hər il iyunun 26-sı həm Silahlı Qüvvələr Günü kimi qeyd olunur, həm də mənim ad günüm kimi. Ona görə mən ordumuzu başqa uşaqlardan daha çox sevirəm. Əsgər Vüsal Musayev məktəbli Gülaya yazıb ki, səni həm öz adımdan, həm də əsgər yoldaşlarımın adından həm Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm, həm də ad günün münasibətilə. Sən daha məsuliyyətlə oxumalısan, çünki ömrünün ən əziz günü ordumuzun adı ilə bağlı olan gündür.

Məktəblilər məktublarında hərbi xidmət haqqında soruşurlar. Hər sorğunun mahiyyəti nəyisə, nələrisə bilməkdi. Bu biçim sorğular, bəlkə də, hərbi xidmətə hazırlığın ilkindən də ilkin başlanğıcıdı - məktəbli zamanı həm də belə qabaqlamaq istəyir. İkinci Qarabağ müharibəsi haqqında döyüşlər, qəhrəmanlar haqqında atasından eşidib, müəllimlərindən eşidib, əsgərlərdən də eşitmək istəyir. Bu istək də vətənpərvərlikdi.

Ümid məktubunda soruşmuşdu ki, hərbi hissəniz Vətən müharibəsində iştirak edibmi? Əsgər Tofiq Abdullayev məktubunda həm məktəblinin sorğusunu cavablandırıb, həm də hərbi hissənin döyüşlərdə necə iştirak etdiyini bildirib: "Hərbi hissəmiz müharibə başlayandan Zəfərə kimi döyüşlərdə iştirak edib, əsgər və zabitlərimiz qəhrəmanlıqla vuruşub, döyüşlərdə beş nəfər şəhid olub. Onların yolunu biz davam etdiririk. Bizim yolumuzu siz davam etdirəcəksiniz..."

"Əsgər" kəlməsi cəmiyyət üçün həmişə həssas olub. Bu həssaslıq İkinci Qarabağ müharibəsində daha da həssaslaşdı, Zəfərdən sonra doğmalıq həddində yaşadılmaqdadı. Məktəblilərin əsgərlərə məktub yazması da bununla bağlıdı. 2020-ci ilin 27 sentyabrına kimi məktublarda torpaqlarımızın işğaldan azad edilməsi istəyi ifadə olunurdu, Zəfərdən sonra işğaldan azad edilmiş ərazilər. "Əsgərlikdən sonra sən də oralarda işləyəcəksənmi?" - sorğusu 8 yaşlı məktəblinin cəmiyyət haqqında düşüncələrinin başlanğıcıdı. Rəşad cavab məktubunda yazıb ki, əsgər dostlarımla oraya işləməyə getməyi qərara almışıq...

... Əsgər məktubu əldən-ələ dolaşır. Bu məktubları oxuyanlar əsgərlərin Vətənə bağlı düşüncələrini könlünə köçürür. Hamısı illərin tez ötüşməsini arzulayır - oğlanlar Vətənə əsgər olmaq üçün, qızlar Vətənə əsgər olan sinif yoldaşları ilə qürurlanmaq üçün...

Yaz yağışından sonra göy üzü üzə necə gülürsə, göy üzündən asılı qalan göy qurşağı görənlərə necə könül xoşluğu verirsə, əsgər məktubları da elə ovqat yaradır...

Əsgər məktubları yollarda ləngimir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İsveç Türkiyəyə terror təşkilatlarını dəstəkləməyəcəyinə söz verib



İsveç Türkiyəyə terrorçu elan etdiyi təşkilatları dəstəkləməyəcəyinə və Avropaya inteqrasiya məsələsində hər cür köməklik göstərəcəyinə söz verib.

"Haber Global" telekanalı xəbər verir ki, bu məsələlərlə bağlı razılaşmaların əldə olunması nəticəsində Türkiyə tərəfi İsveçin NATO-ya qəbulu ilə bağlı protokolun ratifikasiya üçün parlamentə təqdim edilməsinə razılıq verib.

NATO sammitinə uçmazdan əvvəl Ərdoğan bildirib ki, Türkiyə Ankaranın Aİ-yə üzvlüyünə manеələri aradan qaldırmaq müqabilində İsveçin alyansa qoşulmaq istəyini dəstəkləyəcək. Bundan əvvəl Türkiyə hakimiyyəti bəyan etmişdi ki, bunun üçün əsas şərt İsveçin Terrorla Mübarizə üzrə Madrid Memorandumunun öhdəliklərini yerinə yetirməsi olmalıdır.

## ABŞ "F-16"ların Türkiyəyə satışını dəstəkləyir



ABŞ prezident administrasiyası "F-16"ların Türkiyəyə satışını dəstəkləyir.

Bu barədə ABŞ Dövlət Departamentinin məlumatında bildirilib.

Administrasiya, həmçinin Türkiyənin Avropa İttifaqına üzvlük səylərini də dəstəkləməyə davam edəcək.

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsveçin NATO-ya üzvlük protokolunun ən qısa zamanda Böyük Millət Məclisinə göndərilməsinə razılıq verib.

## Ukraynada "Bayraktar" PUA-larının istehsalı zavodunun tikintisinə başlanılıb



Ukraynada Türkiyənin "Baykar" şirkəti tərəfindən "Bayraktar" pilotsuz təyyarələrinin istehsalı zavodunun tikintisinə başlanılıb.

Bu barədə Ukraynanın strateji sənaye naziri Oleksandr Kamışin milli telemarafonun efirində bildirib.

"Bir neçə ildir Ukraynada müzakirə olunan "Bayraktar" zavodundan danışsaq, bu zavodda artıq tikinti işlərinə başlanılıb. Söhbət Ukraynada istehsaldan gedir", - deyə O.Kamışin əlavə edib.

Nazir zavodun tikintisi ilə bağlı real addımlara keçirildiyini vurğulayıb.

Ukraynanın Ankaradakı səfiri Vasil Bodnar 2022-ci ilin avqustunda demişdi ki, "Bayraktar" PUA-sının istehsalı üçün zavodun tikintisi bir neçə ay çəkəcək və müəssisə 2023-cü ildə işə başlaya biləcək. Lakin sonradan səfir hərbi əməliyyatlar səbəbindən zavodun inşası planlarına dəyişiklik edildiyini açıqlamışdı.

## İŞİD-in Suriyadakı liderlərindən biri öldürülüb



ABŞ hərbçiləri Suriyaya endirdiyi zərbə nəticəsində İŞİD terror qruplaşmasının liderlərindən birini məhv edib.

Bu barədə ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının yaydığı məlumatda deyilir.

"Mərkəzi Komandanlıq İŞİD-in Suriyanın şərqindəki lideri Usamə əl-Muhaciri endirilən zərbə nəticəsində öldürüb. Zərbə zamanı mülki əhalinin öldüyünə dair heç bir dəlil yoxdur", - deyə məlumatda qeyd edilib.

Məlumata görə, zərbə "MQ-9" pilotsuz uçuş aparatı ilə həyata keçirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Astanada keçirilən hərbi-musiqi festivalı başa çatıb






*Qazaxıstanın Astana şəhərində "Astana - mədəniyyət karvanı" adlı birinci beynəlxalq hərbi-musiqi festivalının başa çatması münasibətilə təntənəli bağlanış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Barıs Arena" buz sarayında keçirilən mərasimdə iştirakçı ölkələrin solistlərinin hərbi orkestrlərin müşayiəti ilə ifa etdiyi musiqilər, təqdim olunan hərbi marşlar və milli rəqslər tamaşaçıların böyük marağına səbəb olub.

Qeyd edək ki, Astana şəhərinin 25 illiyinə həsr olunan festivalda ölkəmizi Heydər Əliyev adına Hərbi Institutun Hərbi Orkestrinin və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi təmsil edib.

## Vətən müharibəsindən sonra 432 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib

***Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı müasir protezlərlə təminatı işləri aparılır.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 44 günlük Vətən müharibəsindən sonra nazirlik tərəfindən 432 hərbçi 451 ədəd yüksək texnologiyalı protezlə təmin edilib. Onlar I və II Qarabağ müharibəsində yaralanaraq əzalarını itirmiş qəhrəmanlarımızdır.

Yüksək texnologiyalı son nəsil protezlər aktivlik və funksionallığı ilə seçilir və xüsusi proqram təminatına malikdir. Onlar istifadəçinin köməkçi vasitələr olmadan sərbəst, sabit və inamlı hərəkətinə, sosial həyata daha tez və rahat inteqrasiyasına imkan verir.

Yaralanan və sağlamlığında ciddi problem olan şəxslərə son nəsil protezlər vasitəsilə aktiv həyata dönüş imkanı qazanaraq öz idman bacarıqlarını da nümayiş etdirə bilir, hətta idman yarışlarında iştirak edə bilmək imkanına sahib olublar.

## Nümunəvi xidmət

# "Hərbi xidmətdən qürur duyuram"



***Bu gün ordumuzun sıralarında kişilərlə yanaşı, qadın hərbi qulluqçular xidmət edirlər. Kişilik və cəsurluq rəmzi olan hərbi forma geyinmiş bu qadınlar harada, hansı sahədə xidmət etmələrindən asılı olmayaraq, həmişə üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Belə hərbçi qadınlardan biri də Hərbi Hava Qüvvələrinin hərbi hissəsində şərəfli xidmət yolu keçməkdə davam edən çavuş Rada Qasımovadır.***

Çavuş Rada Qasımova Mingəçevir şəhərində dünyaya göz açıb. Orta təhsilini 12 nömrəli məktəbdə alıb. 1995-ci ildə Gəncə Dövlət Texnologiya Universitetinə qəbul olub. Dörd il ərzində bilik və təcrübəsini daha da artırıb. 1999-cu ildə ali təhsilini uğurla başa vuran Rada, San Marino Beynəlxalq Elmlər Akademiyasının Mingəçevir filialında kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlayıb. 2003-cü ildən isə həyatını hələ kiçik yaşlarından böyük sevgi və məhəbbət bəslədiyi orduya bağlayıb. "N" hərbi hissəsində xidmətə başlayıb. Artıq xatirələrə hopmuş həmin illərdən söz açan Rada Qasımova dedi:

- Arzum, istəyim elmi işlərin arxasınca getmək idi. Amma tale məni yurdumuzun ən etibarlı keşikçisi, gündən-günə gücünü, qüdrətini artıran orduya gətirib çıxartdı. Taleyimdən çox razıyam. Bu gün böyük vüqar və qürurla doğmaca olan ordumuzun sıralarında zabit və əsgərlərlə çiyin-çiyinə xidmət edirəm. Komandirlərimin verdiyi bütün əmr və tapşırıqları yerinə yetirirəm. Yaxşı deyiblər ki, aslanın erkəyi-dişisi olmaz. Təkcə mən deyiləm, bu gün ordumuzun sıralarında onlarla hərbçi qadın xidmət edir. Mən də onlardan biri kimi hərbi xidmətdə olduğum üçün qürur duyuram. Xidmətimə məsuliyyətlə yanaşıram. İkinci Qarabağ müharibəsinin başladığı günlərdə hərbi hissəmizin şəxsi heyəti çox mühüm bir tapşırığı - yurdumuzun hava sərhədlərini qorumaq tapşırığını yerinə yetirirdi. Hər bir zabit, hər bir əsgər mövqeyində ayıq-sayıq dayanmışdı. Düşmən ölkəmizin ərazisindəki strateji obyektləri vurmağa çalışırdı. Amma hava hüdudlarımızı qoruyan hərbçilərimiz dəqiq atəş zərbələri ilə erməni işğalçılarının hücümlarının qaşısını alırdı. Zabit və əsgərlərimiz düşmən üzərində zəfərin qazanılması naminə böyük hünər və qəhrəmanlıq göstərirdilər. Düşmən hədəfləri vaxtında aşkarlanır və məhv edilirdi. 44 gün davam edən Vətən müharibəsində qələbəmiz naminə gərgin günlər yaşadıq. Həmin xidmət günləri həyatımın ən şərəfli anlarıdır. Bu anlar heç vaxt unudulmayacaq.

Söhbət zamanı onu da öyrəndim ki, qürur və iftixarla hərbi forma daşıyan çavuş Rada Qasımovanın qardaşı Nazim Qasımov Birinci Qarabağ müharibəsi iştirakçısıdır. 1992-ci ildən 1994-cü ilə kimi Ağdam rayonu istiqamətində gedən döyüşlərdə vuruşub. Təəssüflər olsun ki, Nazim döyüşlərin birində ağır yaralanıb. İndi o, 2-ci qrup əlildir. Rada bizimlə söhbətində onu da dedi ki, İkinci Qarabağ müharibəsinin getdiyi günlərdə qardaşı döyüşlərin gedişini diqqətlə izləyirdi. Cəbhəyə getməyə can atsa da, sağlamlığı buna yol vermirdi. Vətən müharibəsində qüdrətli ordumuzun erməni işğalçılarını məğlubiyyətə uğradıb qalib gəlməsi, torpaqlarımızı azad etməsi qardaşımı çox sevindirdi. Bu sevincin cizgiləri hələ də onun üzündən çəkilməyib.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın MMA döyüşçülərinin "Super Rizin 2" turnirindəki rəqibləri bəlli olub



Azərbaycanın MMA döyüşçüləri Tofiq Musayev və Vüqar Kərəmovun "Super Rizin 2" turnirindəki rəqibləri bəlli olub.

71 kiloqram çəki dərəcəsində çıxış edən Tofiq Musayev yaponiyalı Akira ilə üz-üzə gələcək. Vüqar Kərəmov (66 kq) isə onun həmyerlisi Mikuru Asakura ilə görüşəcək.

Qarşılaşmalar iyulun 30-da Yaponiyadakı "Saitama Super Arena"da baş tutacaq.

## Boksçularımız beynəlxalq turnirdə 7 medal qazanıb



Gürcüstanın Qori şəhərində gənc boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb.

Azərbaycan millisinin 8 idmançısından 7-si yarışı medalla başa vurub. Komandamızın heyətində Ramal Yolçuyev (48 kq) və Nadir Məlikov (60 kq) fəxri kürsünün ikinci pilləsinə qalxıb. Sabir Dadaşov (51 kq), Ənəs Ağayev (54 kq), Əli Alıyev (57 kq), Ayxan Əliyev (67 kq) və İlfan Xəlilli (80 kq) isə bürünc medala sahib olublar.

## Azərbaycan güləşçiləri Macarıstanda rekord göstəriciyə imza atıblar



Macarıstanın Kaposvar şəhərində keçirilən U-15 Avropa çempionatında sərbəst güləş üzrə mübarizəyə yekun vurulub.

Qitə birinciliyində 9 (3 gümüş, 6 bürünc) medal qazanan millimiz komanda hesabında yalnız Gürcüstandan (155 xal) geri qalıb. Avropa ikincisi olan yığmamız 145 xal toplayıb ki, bu da U-15 Avropa çempionatları tarixində sərbəst güləş üzrə millimizin yeni rekordudur.

Məşqçilər Namiq Quliyev, Elşad Allahverdiyev və Xəqan Süleymanovun rəhbərliyi altında Hüseyn İsmayılov (52 kq), İsa Yusibov (57 kq), Amin Nəsibov (85 kq) gümüş, Rəşid Nazarov (41 kq), Ruslan Əlizadə (44 kq), Həsən Həsənov (48 kq), Fərid Ağasızadə (52 kq), Nihad Abasov (62 kq) və Rəşad Veysəlov (68 kq) isə bürünc medal qazanıblar.

## Akrobatika gimnastlarımız İtaliyada iki medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan millisinin üzvləri İtaliyanın Turin şəhərində keçirilən "Turin Acro Cup" turnirində iki medal qazanıblar.

Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük qızıl medala layiq görülüb.

Nəzrin Fərmanova, Aynur Yusufova və Lalə Hüseynovadan ibarət qadın qrupu isə beynəlxalq turniri ikinci pillədə bitirərək gümüş medala sahib çıxıb.

## Paris 2024 Yay Paralimpiya Oyunlarına ilk lisenziya qazanılıb

Azərbaycan Milli Paralimpiya Komitəsinin atletika idman növü üzrə milli komandasının üzvü Oloxan Musayev Fransanın paytaxtı Parisdə keçirilən dünya çempionatında nüvə itələmə növündə 11.74 m nəticə göstərərək 4-cü yerə çıxıb.

Oloxan Musayev bu nəticə ilə Paris 2024 Yay Paralimpiya Oyunlarına lisenziya əldə edib.

Qeyd edək ki, dünya çempionatında ilk 4 yerə sahib çıxan atletlər XVII Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanırlar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 368
Nüsxə 4725